# İNFORMASİYA HÜQUQU

## VİRTUAL MƏKANDA ŞƏXSİ TOXUNULMAZLIQ HÜQUQUNUN QORUNMASI

ELNUR HÜMBƏTOV*

**Annotasiya**

*İnformasiya texnologiyalarının inkişafı nəticəsində bu gün dünya hər sahədə sürətli rəqəmsal transformasiyanı yaşayır və virtual mühitlər həyatımıza sirayət etmişdir. Texnologiyanın və xüsusilə virtual media platformalarının inkişafı ilə əlaqədar olaraq insanların şəxsi həyatına qeyri-qanuni müdaxilələrin edilməsi əvvəlkindən daha asan olduğu üçün belə müdaxilə halları günbəgün artmaqdadır. Bu da virtual məkanda şəxsi toxunulmazlıq hüququnun qorunmasına dair tənzimləmələrin dövrün tələbinə uyğunlaşdırılmasını şərtləndirir. Məqalədə virtual məkanda şəxsi toxunulmazlıq hüququnun qorunmasına dair ilkin şərtlər və qaydalar, fərdi məlumatların təhlükəsizliyinin təminatı üzrə tədbirlər təhlil edilmiş, bu sahədə təklif və tövsiyələr irəli sürülmüşdür.*

**Açar sözlər:** *virtual məkan, insan hüquqları, şəxsi toxunulmazlıq hüququ, fərdi məlumat, milli-hüquqi tənzimetmə, beynəlxalq-hüquqi tənzimetmə.*

### *I. Giriş*

Kütləvi kommunikasiya vasitəsi olan internet özü ilə bəzi problemlər də gətirmişdir. İnternetdəki fərdi məlumatlar həm dövlət orqanları, həm də özəl sektor tərəfindən müxtəlif qanuni məqsədlər üçün toplanır və saxlanılır. Sonradan şəxslə bağlı bir çox mühüm qərarlar həmin məlumatlar əsasında verilir. Ona görə də fərdi məlumatların dəqiq, etibarlı və təhrifsiz saxlanılması vacib məsələdir. Bundan əlavə, fərdi məlumatların sistemdə lüzumsuz yerə uzun müddət saxlanılması da bir çox hüquqlara qarşı yönəlir (məsələn, unudulmaq hüququ).

Ənənəvi olaraq, şəxsi toxunulmazlıq hüququ konkret şəxslə əlaqəli təhlil edilir. Bəs virtual məkanda və ya virtual dünyada şəxs dedikdə kim nəzərdə tutulur? – Web 2.0 platformalarının yayılması ilə müzakirə olunmağa başlayan, süni intellektin inkişafı ilə davam edən və Web 3.0 platformalarının tətbiqi ilə avatarlar kontekstində müzakirə olunmağa davam edən rəqəmsal şəxs və ya elektron şəxs anlayışı dövrümüzün ən çox müzakirə olunan mövzularındandır.

### *II. Virtual məkanda şəxsi toxunulmazlıq hüququnun qorunması: ilkin şərtlər və qaydalar*

2017-ci ildə dərc edilmiş “Avropa Parlamentinin Hüquq Məsələləri Komitəsinin Robottexnika üzrə Tövsiyə Hesabatı” elektron və ya rəqəmsal şəxsiyyətlərin hüquqi və tənzimləyici nəticələrini aradan qaldıran tövsiyələr təqdim edir. Hesabat çərçivəsində rəqəmsal və ya elektron şəxsiyyətə əsaslanan süni intellekt üçün xüsusi hüquqi statusun yaradılmasının zəruriliyi və ediləcək tənzimləmələrin bu kontekstdə nəzərə alınması lazım olduğu bildirilir.

* H.ü.f.d. / Bakı Dövlət Universiteti / email: elnur_88@inbox.ru

Hesabatda əsas tövsiyələrdən biri süni intellekt və elektron şəxsiyyətlər üçün xüsusi hüquqi statusun yaradılmasıdır. Hesabat rəqəmsal şəxslərin unikal xüsusiyyətlərini və imkanlarını tanıyan və onların virtual mühitdə hüquq və vəzifələri ilə bağlı təlimatları təqdim edən tənzimləyici çərçivəyə ehtiyacı vurğulayır. Bundan əlavə, hesabat bu texnologiyalara nəzarət edəcək və tənzimləyən robottexnika və süni intellekt agentliyinin yaradılmasını tövsiyə edir. Bu agentlik robottexnika və süni intellektin məsuliyyətli inkişafı və istifadəsi üçün siyasətlərin, standartların və təlimatların yaradılmasında və həyata keçirilməsində mühüm rol oynayacaq. Məqsəd bu texnologiyaların etik prinsiplərə uyğun olaraq hazırlanmasını və istifadəsini təmin etmək, fərdlərin və cəmiyyətin hüquq və mənafelərini qorumaqdır. Bundan əlavə, hesabat robottexnika və süni intellektin tənzimlənməsində sərt və yumşaq qanunların birləşməsinin vacibliyini vurğulayır, bu texnologiyaların mürəkkəbliyini və sürətli inkişafını nəzərə alaraq yeni inkişaflara uyğunlaşa bilən və yaranan problemləri həll edə bilən çevik tənzimləmə modelini təklif edir [4].

Virtual dünya istifadəçilərinin və virtual dünya operatorlarının hüquq və vəzifələrini müəyyən etmək və mümkün mübahisələri həll etmək üçün onlar arasında hüquqi əlaqə müəyyən edilməlidir. Virtual aləm operatoru platformanın istifadə şərtlərini yaradır, öz saytında dərc edir və platformanın əhatə dairəsi daxilində xidmətlərə daxil olmaq üçün platforma istifadəçilərinin onlara əməl etməsini gözləyir. İstifadəçilər qeydiyyatdan keçmək, avatar yaratmaq və rəqəmsal şəxsiyyət yaratmaq mərhələlərini keçərək bu platformalara qoşulduqda bu platformanın müəyyən edilmiş qaydalarını qəbul etmiş sayılırlar. İstifadə qaydalarında bildirilir ki, bu qaydaları virtual kainat platformalarına daxil olduqda və istifadəyə başlayanda istifadəçi tərəfindən qəbul edilmiş sayılacaq və istifadəçi əvvəlcə bu qaydaları oxuyub qəbul etməyə yönəldilir və qəbul edildikdən sonra xidmətdən faydalanmağa başlayır. Əslində qeyd olunan istifadə qaydaları mahiyyət etibarilə virtual aləm istifadəçisi ilə operatoru arasında istifadə şərtləri, konfidensiallıq və təhlükəsizlik siyasəti, məzmun siyasəti kimi virtual dünyaya daxil olmaq, istifadə etmək və ondan faydalanmaq üzrə hüquq və öhdəlikləri müəyyən edən müqaviləni təşkil edir. Şəxsi toxunulmazlıq aspektindən xidmət müqaviləsinin konfidensiallıq siyasəti şərh olunmalıdır. İnsanların məlumatları konfidensiallıq siyasətlərində göstərilən şərtlərə uyğun olaraq virtual dünya platformaları tərəfindən toplanır. Belə toplanma iki formada ola bilər:

Birincisi, şəxsin qeydiyyatdan keçərkən və öz avatarını yaradarkən yüklədiyi fotoşəkil, qaş rəngi, göz rəngi, üz növü, saç düzümü, e-poçt ünvanı, yaş, cins, yer, milliyyət, təhsil kimi bir çox məlumatlar şəxsin özü tərəfindən təqdim olunur.

İkinci qrup məlumatlar isə virtual aləmin istifadəsi zamanı toplanır. Məsələn, avatarının qarşılıqlı əlaqələri, virtual kainatda ünsiyyət qurduğu digər avatarlar, kriptovalyuta alış-veriş seçimləri, fiziki alış-veriş seçimləri və s.

İstifadə müqavilələrində istifadəçinin təqdim etdiyi məlumatların bəzilərinin digər istifadəçilərə məlum olmaması kimi əlavə seçimlər təklif oluna bilər ki, bu təklif adətən qeydiyyatdan keçmə zamanı edilir. İstifadəçilər bu seçimi seçdiyi halda digər istifadəçilər bu məlumatı əldə edə bilməsələr də, virtual dünya platforması bütün bu məlumatları öz serverlərində yerləşdirir. Məhz belə yerləşdirmə və saxlanma istifadəçilərin fərdi məlumatlarının qorunması ilə bağlı hüquqi və texniki tədbirlərin düzgün aparılmasını tələb edir.

Virtual məkanda şəxsi toxunulmazlıq hüququ iki halda pozula bilər: istifadəçilərin özləri tərəfindən digər istifadəçilərə və ya virtual məkanın istifadəçisi olmayan üçüncü şəxslərə qarşı pozuntu halları; virtual məkanda təhlükəsizliyin tam təmin olunmaması və kibercinayətlərin törədilməsi nəticəsində.

Web 3.0 platformaları blokçeyn əsaslı olsa və insanların mərkəzləşdirilməmiş strukturda sərbəst şəkildə məzmun istehsal və istehlak etdiyi sahələr kimi görünsə də, bu sərbəstliyin hüquq sistemindəki məhdudiyyətlərindən biri başqalarının hüquq və azadlıqlarına riayət olunmasıdır. Belə ki, istifadəçilər virtual məkan platformaları tərəfindən təqdim edilən təhsil sahələri, sosiallaşma sahələri, konsertlər, şənlik tədbirləri, mədəniyyət və incəsənət sərgisi sahələri, oyun meydançaları kimi məzmunlara öz avatarları ilə daxil olub onlara təqdim olunan məzmundan istifadə edə bilərlər. İstifadəçilərin avatarlarının bu məzmunlardan faydalanarkən digər avatarlarla qarşılıqlı əlaqəsi, məzmunu istehlak edərkən davranışları və hərəkətliliyi platforma tərəfindən məhdudlaşdırıla bilər. Virtual aləmdə istifadəçi həm də blokçeynində qeydiyyatdan keçmiş domeni satın alaraq öz məzmununu yaratmaq imkanına malikdir. Bu məzmunu yaradarkən istifadəçinin əməl etməli olduğu qaydalar sırasında başqalarının şəxsi toxunulmazlıq hüququnu pozan məzmunun yerləşdirilməsi qadağandır: başqasının adından və ya şəklindən istifadə edərək digər istifadəçilərin görə biləcəyi şəkildə avatar yaratmaq; yaradılmış avatarla şəxsin şərəf və ləyaqətinə, xələl gətirən hərəkətlər etmək; məzmunda başqasının şəxsi həyatı haqqında məlumatları yerləşdirmək; başqa istifadəçinin avatarının onun icazəsi və xəbəri olmadan virtual məkanda iştirak etdiyi fəaliyyətləri açıqlamaq və s.

Ümumilikdə, hesab etmək olar ki, nifrət nitqinin məzmununa daxil olan məlumatların yerləşdirilməsi də başqalarının şəxsi toxunulmazlıq hüququna qəsd etmiş olur. Belə hallarda platformaya bildiriş prosedurları mövcuddur. Şəxsi toxunulmazlıq hüququnun pozulması ilə bağlı zəruri ərizə formaları və sübutedici sənədlər yüklənərək virtual məkan operatoruna bildirilir və platforma tərəfindən bildirilmiş məzmunun platformanın məzmun siyasətinə uyğunluğu yoxlanılır. Məzmun siyasətinin pozulması aşkar edilərsə, virtual aləm operatoru məzmunun bloklanması, hesabın dayandırılması və hesabın bloklanması kimi daxili sanksiyalara əlavə olaraq hüquqi tədbirlər görə bilər. Platformadan məzmunu bloklamaqla yanaşı, şəxsi toxunulmazlıq hüququ pozulmuş şəxs başqa qanuni addımlar da ata bilər.

Qeyd etdiyimiz kimi, ikinci pozuntu halları təhlükəsizliyin tam təmin olunmaması ilə əlaqədardır. Baxmayaraq ki, virtual aləmlə bağlı xidmət müqavilələrində təhlükəsizlik siyasəti vacib elementlərdən sayılır, məlumatların tamlığının, konfidensiallığının və əlyetərliyinin təmin edilməməsi bir çox hallarda fərdi məlumatların qorunmamasına, eləcə də kibercinayətlərin törədilməsinə şərait yaradır. Burada xüsusilə faydalı proqramlarda gizlənən və ya başqa fayl kimi gizlədilmiş proqram təminatını qeyd etməliyik. Məsələn, Trojan atı proqramı və xameleon kimi proqram təminatı əksər kompüter istifadəçilərinin əldə etmək istəyə biləcəyi faydalı proqram təminatına əlavə edilir və sonra sistemi zədələməyə başlayır [6, s. 38]. Xameleon sistemdəki bütün istifadəçilərin ad və şifrələrini öz gizli faylında qeyd edir. Daha sonra sistemin texniki xidmət üçün müvəqqəti bağlanacağı barədə mesaj göndərir. Bunu edərkən bu proqram təminatından istifadə edən şəxs sözügedən gizli fayla daxil olur və istifadəçilərin ad və şifrələrini əldə edir.

İnternet infrastrukturu və sosial medianın verdiyi imkanlarla insanların söhbətlərinin elektron mühitlərdə qeydə alınması və dinlənməsi ilə yanaşı, Instagram, Facebook kimi sosial platformalarda da istifadə oluna bilər. Onu Decentraland, Sandbox, GoArt kimi metaverse platformalarında digər tərəflərə təqdim etmək də şəxsi toxunulmazlıq hüququnun pozulması deməkdir.

Hüquqi tənzimləmə və doktrinanın ümumiləşdirilməsinə əsasən, virtual məkanlarda şəxsi toxunulmazlıq hüququna qəsd edən daxili və xarici təhdidləri fərqləndirmək olar. Daxili təhdidlər virtual aləmin daxilindən ya istifadəçilər, ya da platformanın fəaliyyətinə nəzarət edən subyektlər tərəfindən törədilir. Xarici təhdidlər isə virtual aləmdən kənar şəxslərin (məsələn, hakerlərin) törətdiyi pozuntuları əhatə edir.

Virtual məkanda şəxsi toxunulmazlıq hüququnun pozulması halları bu hüququn məzmununa daxil olan fərdi məlumatlardan asılı olaraq dəyişir. İlk növbədə şəxsin adı və soyadı ilə əlaqədar məsələlərə toxunmaq istərdik. Qeyd olunduğu kimi, domen adları virtual məkan üçün vacib elementlərdən biridir. Bir çox hallarda domen adlarının seçimi zamanı başqa şəxslərin adlarından istifadə etməklə onların şəxsi toxunulmazlıq hüququna qəsd edilir. Domen adlarının qorunması hər bir dövlətdə fərqli şəkildə təmin edilir. Məsələn, Almaniyada domen adı şəxsi toxunulmazlıq hüququna aid müddəalarla qanuni olaraq qorunur [9, s. 159]. ABŞ və Böyük Britaniyada bu qoruma daha çox əmtəə nişanı hüququnu tənzimləyən qaydalara əsasən təmin edilir [3]. Azərbaycanda əmtəə nişanları istiqamətində tənzimləmə nəzərdə tutulsa da (Əmtəə nişanları və coğrafi göstəricilər haqqında Qanun – maddə 32), başqa şəxsin adından istifadə ilə bağlı yalnız tanınmış şəxsiyyətlərin adı, soyadı və ya təxəllüsündən istifadəyə icazə verilmir [7].

Şəxs domen adı kimi onunla heç bir əlaqəsi olmayan üçüncü şəxsin adından istifadə edə bilər. Xüsusən də məşhur şəxslərin adları irqçi təbliğat və pornoqrafik saytlar üçün domen adı kimi qeydə alınır. Belə hallarda məsuliyyət məsələsi necə həll olunur? – Məsələ burasındadır ki, domen adının əldə

olunması www.whois.az və online.az saytlarında yerləşdirilən məlumatlar natamamdır. Konkret bilmək olmur ki, adı çəkilən Qaydaların 4.3-cü maddəsində öz əksini tapmış Stopl-list siyahıya nələr daxildir. Bundan əlavə, domen adları ilə bağlı yaranan digər mübahisə növü birdən çox şəxsin və ya qurumun addan haqlı olaraq istifadə etmək istəməsi səbəbindən yaranır. Məsələn, eyni ad və soyadlı iki şəxs öz adları ilə sayt açmaq istədikdə və ya müxtəlif qeydiyyat bölgələrinə malik iki şirkət öz adları ilə sayt açmaq istədikdə belə problem yarana bilər. Domen adları unikaldır, yəni qeydə alınmış domen adı ikinci dəfə qeydə alına bilməz. İnternet hüququna xas olan domen adları sistemində "ilk gələnə ilk xidmət" prinsipi tətbiq olunduğundan bütün hallarda ədalətli həllə nail olmaq mümkün deyil. Belə hallarda hansı adın üstünlük hüququ olduğu müəyyən edilməli və ya digər adı çaşdırmaq təhlükəsi varsa, bu təhlükə aradan qaldırılmalıdır. Başqa sözlə, domen adları üzərində rəqabətli hüquqlar olduqda, domen adı prioritet prinsipinə deyil, üstün hüquq prinsipinə uyğun olaraq ayrılmalıdır [5, s. 515].

Qeyd etməliyik ki, domen adlarının qeydiyyatında olan boşluq və çatışmazlıqlar əqli mülkiyyət hüquqlarının pozulması və kiberskvottinq hallarının da artmasına şərait yarada bilər. Kiberskvottinq ümumiyyətlə başqasının ticarət nişanının domen adında pis niyyətlə qeydiyyatıdır. Sözügedən Qaydalarda məsuliyyət məsələsinin müəyyən olunması zamanı qeyri-dəqiqliyin aradan qaldırılması sadalanan pozuntuların qarşısının alınması üzrə uğurlu yol ola bilər.

Virtual məkanda şəxsi toxunulmazlıq hüququnun pozulmasının mübahisələndirilməsi aşağıdakı formalarda ola bilər:




Qəsd və ya pozuntu təhlükəsinin qarşısının alınması ilə bağlı iddia o hallarda qaldırılır ki, şəxsiyyətə qarşı qəsd hələ başlamasa da, müəyyən konkret əməl və faktlar əsasında pozuntunun baş vermə ehtimalı yüksəkdir. Məsələn, öz fotolarının internet saytında paylaşılacağını öyrənən şəxsin bu fotoların paylaşılmasının qarşısını almaq üçün iddia ilə müraciət edə bilər. Lakin bu zaman məhkəmə fotoları paylaşacağı ilə hədələyən şəxsin bunu etmək imkanının olub-olmamasını yoxlamalıdır. Onun mövcudluğunu sübut etmək vəzifəsi iddiaçının üzərinə düşür.

Davam edən qəsdin dayandırılmasına dair bariz nümunə internet informasiya ehtiyatında şəxsi və ailə həyatına dair mləumatların yayımlanmasının qarşısının alınmasıdır. Bu, İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Qanunun 13-2-13-3-cü maddələrində öz əksini tapmışdır.

Bitməsinə baxmayaraq təsiri davam edən qəsdin qanunsuzluğunun müəyyən edilməsi və pozuntunu təşkil edən nəşrdə düzəliş və ya təkzibin tələb edilməsi artıq pozulmuş hüququn müdafiəsini əhatə edir. Bu, həm Konstitusiyanın 50-ci maddəsində bəyan olunmuş, həm də Media haqqında Qanunun 18-19-cu maddələrində hüquqi tənzimlənməsini tapmışdır.

### *III. Virtual məkanda fərdi məlumatların təhlükəsizliyinin təminatı: hüquqi tədbirlər*

Fərdi məlumatlar sahibinin icazəsi və məlumatı olmadan başqaları tərəfindən əldə edilə, istifadə oluna, çoxaldıla və ya başqa üsullarla emal edilə bilməyən müəyyən və ya müəyyən edilə bilən xüsusiyyətlərə malik şəxslər haqqında bütün məlumatlara istinad etmək üçün istifadə olunur. Fərdi məlumatların dairəsi milli hüquqda Fərdi məlumatlar haqıqnda Qanunla müəyyənləşdirilmişdir.

Üçölçülü virtual mühitlərin yaradılması ilə internetdə fərdi məlumatların mühafizəsi ilə bağlı problemlər müzakirə olunmağa başlandı. Virtual məkanda iki növ məlumatlar mövcuddur:

- real dünyadan götürülmüş və virtual məkanda nümayiş etdirilən məlumatlar;
- virtual məkanda təqdim olunan avatarlar, rəqəmsal obyektlər və xidmətlərlə bağlı məlumatlar.

İstifadəçilərə üç ölçülü rəqəmsal yaşayış sahəsi təqdim edən virtual məkan şəxsin adı, şəkli, telefon nömrəsi, əlaqə məlumatları, ünsiyyət trafiki məlumatları və vərdişləri kimi bir çox fərdi məlumatları ehtiva edir. Hal-hazırda, xüsusilə üçölçülü virtual mühitin həyatımıza daxil olması ilə istilik və toxunma hisslərini təmin edən əlavə reallıq əsaslı kontakt linzalar, paltar və əlcəklər kimi geyilə bilən texnologiyalar sürətlə inkişaf edir ki, onarın vasitəsilə göz hərəkətləri, üz ifadələri və bədən istiliyi, ürək döyüntüsü və nəbz məlumatları toplana bilər. Bütün bu fərdi məlumatların təhlükəsizliyinin tam təmin olunmaması onlardan müxtəlif qeyri-qanuni məqsədlər üçün istifadəyə gətirib çıxarır. Belə qeyri-qanuni məqsədlər nəticə etibarilə şəxsi toxunulmazlıq hüququnun pozulması deməkdir. Lakin virtual məkanda şəxsi toxunulmazlıq hüququna dair pozuntuların hüquqauyğunluğunun qiymətləndirilməsi fiziki dünyada törədilən pozuntularla müqayisədə fərqli cəhətlərə malikdir. Bu zaman virtual məkan operatoru, istifadəçi və üçüncü şəxslər aspektindən hüquqauyğunluq səbəblərini araşdırmaq lazımdır.

İstifadəçi platformada qeydiyyatdan keçərkən təsdiq verərək, platformadan istifadə şərtlərini ümumiyyətlə qəbul etməklə, məsuliyyətin həcmini, kriptovalyutalardan istifadəni, ödəniş şərtlərini və s. bu kimi bütün şərtləri qəbul etmiş sayılır. Deməli, burada şəxsin razılığı ən vacib məqamdır. Verilən razılıq ifadəsi əxlaq çərçivəsində olmalı, aydın bəyan edilməlidir.

Virtual məkanda şəxsi toxunulmazlıq hüququnun pozulması hallarında pozuntunun baş verdiyi yer müəyyən coğrafiya ilə məhdudlaşmır. Dünyanın istənilən yerindən internetə çıxışı olan cihazlardan internetə daxil olaraq müxtəlif hüquq pozuntularına yol vermək mümkündür. Beləliklə, pozuntunun baş verdiyi yerin və əməli törədən şəxsin şəxsiyyətinin müəyyən edilməsində çətinliklər yarana bilər. Bu baxımdan, pozuntu vəziyyətlərində fiziki, rəqəmsal və fijital məsuliyyət fərqləndirilir. Son nəticə fiziki məsuliyyətin müəyyən olunması ilə bitir. Lakin bu nəticəyə qədər virtual məkanda törədilən hər hansı bir pozuntuya görə rəqəmsal məsuliyyət formalaşır və belə məsuliyyət forması konkret avatarın əsl real sahibi müəyyən olunana qədər davam edir. Fijital məsuliyyət isə (fiziki və digital (rəqəmsal) sözlərinin birləşməsi nəticəsində yaranıb) fiziki dünyaya keçid olaraq virtual məknaın təsiri ilə formalaşır. Məsələn, elektron cihazlar artıq bizim verdiyimiz suallara adi insanlar kimi cavab verir ki, bu, özü də fijitallaşmadır.

Rəqəmsal və ya elektron şəxs çərçivəsində fiziki məsuliyyətin, rəqəmsal məsuliyyətin və figital məsuliyyətin əhatə dairəsi və hüdudları müəyyən edilərkən aşağıdakı prinsiplərə əməl edilməlidir:

- Virtual kainatlardakı avatarlar real insana zərər verməyəcək şəkildə dizayn edilməlidir;
- Fiziki aləmdə təsiri real şəxs tərəfindən hiss edilən zərərin olmadığı hallarda, məsuliyyət anonimlik pərdəsi saxlanılmaqla rəqəmsal və ya elektron şəxs çərçivəsində müəyyən edilməlidir;
- Texnologiya istehsalçıları üçün qeyri-məhdud məsuliyyət nəzərdə tutulmamalıdır [6, s.109].

Virtual məkanda şəxsi toxunulmazlıq hüququnun müdafiəsi yalnız şəxsin şəxsi və ailə həyatının izlənilməsi ilə əlaqədar olmayıb, həmçinin şəxsi və ailə həyatına dair məlumatların təhrifsiz, təhlükəsiz saxlanılması və sonrakı istifadə üçün tamlığının qorunması məsələsini gündəmə gətirir.

## *IV. Nəticə*

Virtual məkanda insan hüquq və azadlıqlarının qorunması ilə bağlı dövrün aktual problemlərindən biri də domen adlarının qeydiyyatı zamanı şəxsi toxunulmazlıq və əqli mülkiyyət hüquqlarının pozulması formasında özünü büruzə verir. Belə ki, respublikamızda domen adlarının qeydiyyatı ilə bağlı aşağıdakı çatışmazlıqlar mövcuddur: Birincisi, domen adının qeydiyyatı zamanı başqa şəxslərin ad və soyadından istifadə ilə bağlı heç bir məhdudiyyət olmadığı üçün (yalnız tanınmış şəxslərlə bağlı məhdudiyyət nəzərdə tutulmuşdur) istənilən adda domen adı yaradıla bilər və bu zaman məhdudiyyət nəzərdə tutulsa belə, məşhurların adından istifadə edilərək domen adı yaradılarsa, milli inzibatçı və qeydiyyatçı heç bir məsuliyyət daşımır. Çünki 25 fevral 2019-cu il Qaydaları domen adının seçimi zamanı başqa şəxslər qarşısında məsuliyyəti bilavasitə sifarişçinin üzərinə qoyur (4.7-ci bənd). Bu o deməkdir ki, bu adların aktuallığının və düzgünlüyünün yoxlanılması ilə bağlı heç bir mexanizm yoxdur. Eyni hal

əmtəə nişanının domen adında istifadəsi zaman da mövcud olur. Bu da ölkəmizdə kiberskvottinq hallarının getdikcə artmasına səbbə olacaqdır. Ona görə də domen adlarının zəbt olunmasına qarşı mübarizə ilə bağlı vahid siyasət işlənib hazırlanmalı, eləcə də Stop-list siyahılar dəqiq müəyyən olunmalıdır. Məsələn, domen adlarını eyniləşdirməyə imkan verən məlumatlara (İP-ünvan, elektron poçt, ünvan, ad, soyad və s.) əsasən, dəqiq təhlil etmək və daha sonra qeydiyyatdan keçirilməsinə icazə vermək olar. Bu, sonradan hüquq pozuntusuna görə məhkəmə mübahisələrinin də qarşısının alınmasına xidmət edəcəkdir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Aliyev A.I. Human rights. Textbook. Second edition. Baku: Nurlar, 2019, 352 p (in Azerbaijani / *Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri. Bakı: Nurlar, 2019, 352 s*).
2. Aliyev A.I., Rzayeva G.A., Ibrahimova A.N., Maharramov B.A., Mammadrzali Sh.S. Information Law. Textbook. Baku: Nurlar, 2019, 448 p (in Azerbaijani / *Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ. Dərslik. Bakı: Nurlar, 2019, 448 s*).
3. Domain Names and Trademark Law.
URL: https://www.findlaw.com/smallbusiness/intellectual-property/domain-names-and-trademark-law.html (last access: 13.08.24).
4. European Parliament resolution of 16 February 2017 with recommendations to the Commission on Civil Law Rules on Robotics (2015/2103(INL)).
URL: https://www.europarl.europa.eu/doceo/document/TA-8-2017-0051_EN.html (last access: 16.08.24).
5. Memish T. Legal Issues Arising Around the Domain Name // Psychological, Sociological and Legal Effects Symposium on Information Society, Ankara, 2001, pp. 513-527 (in Turkish / *Memiş T. Alan İsimi Etrafında Ortaya Çıkan Hukuki Sorunlar // Bilişim Toplumuna Giderken Psikoloji, Sosyoloji ve Hukukta Etkiler Sempozyumu, Ankara, 2001, s. 513-527*).
6. Murat V.D. Cyber Crimes. Ankara: Seçkin, 2004, 1048 p (in Turkish / *Murat V.D. Bilişim Suçları. Ankara: Seçkin, 2004, 1048 s*).
7. Rules for registration and use of country code top-level domain names “az”, approved by the Resolution No. 63 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated February 25, 2019, Article 4.3 (in Azerbaijani / *“az” ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatı və istifadəsi Qaydaları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 fevral tarixli 63 nömrəli Qərarı ilə təsdiq edilmişdir, maddə 4.3*).
URL: https://e-qanun.az/framework/41574 (last access: 18.08.24).

8. Soylu E. Violations and protection of personal rights in virtual universes / Master's Thesis / Bahçeşehir, 2023, 142 p (in Turkish / *Soylu E. Sanal evrenlerde kişilik hakkı ihlalleri ve korunması / Yüksek Lisans Tezi / Bahçeşehir, 2023, 142 s*).
9. Topaloğlu M. Information Technology Law, Adana: Karahan Bookstore, 2005, 436 p (in Turkish / *Topaloğlu M. Bilişim Hukuku, Adana: Karahan Kitabevi, 2005, 436 s*).

**Protection of privacy in virtual space**

ELNUR HUMBATOV*

**Abstract**

*As a result of the development of information technologies, today the world is experiencing a rapid digital transformation in all areas, and virtual environments have invaded our lives. Due to the development of technology and especially virtual media platforms, it is easier than before to make illegal interventions in people's private lives, so the cases of such interventions are increasing day by day. This also stipulates the adaptation of the regulations on the protection of the right to privacy in the virtual space to the requirements of the time. In the article, the prerequisites and rules for protecting the right to privacy in the virtual space, measures to ensure the security of personal data were analyzed, suggestions and recommendations were put forward in this field.*

**Keywords:** *virtual space, human rights, right to privacy, personal data, national-legal regulation, international-legal regulation.*

**Защита право на неприкосновенность частной жизни в виртуальном пространстве**

ЭЛЬНУР ГУМБАТОВ**

**Резюме**

*В результате развития информационных технологий сегодня мир переживает стремительную цифровую трансформацию во всех сферах, и виртуальные среды вторглись в нашу жизнь. Благодаря развитию технологий и особенно виртуальных медиа-платформ стало легче, чем раньше, осуществлять незаконное вмешательство в частную жизнь людей, поэтому случаи такого вмешательства растут с каждым днем. Это также предусматривает адаптацию к требованиям времени положения о защите права на неприкосновенность частной жизни в виртуальном пространстве. В статье проанализированы предпосылки и правила защиты права на неприкосновенность частной жизни в виртуальном пространстве, меры по обеспечению безопасности персональных данных, выдвинуты предложения и рекомендации в этой области.*

**Ключевые слова:** *виртуальное пространство, права человека, право на неприкосновенность частной жизни, персональная информация, национально-правовое регулирование, международно-правовое регулирование.*

**Redaksiyaya daxil olma tarixi: 26.08.2024**
**Çapa qəbul: 24.12.2024**

* PhD in Law / Baku State University / email: elnur_88@inbox.ru
** Д.ф.п.п. / Бакинский Государственный Университет / email: elnur_88@inbox.ru